*(Əvvəli ötən saylarımızda)*

Şah divan üzvlərini nəzərdən keçirdi. Osmanlı sərhədindən təzəcə qayıtmış Xan Məhəmməd Ustaclı, Piri bəy Qacar, Hüseyn Lələ bəy, digərləri də burada idi. Şahın bacısının əri Bayram bəy Şamlı Übeyd xanla savaşda həlak olmuşdu. Təbii ki, onlar, burada yox idi. İndi onun yerində Əbdi bəy Şamlı oturmuşdu. Bir sözlə, Səfəvilərin adlı-sanlı sərkərdələri bu gün divana toplaşmışdılar. Əslində, hər kəs yaxşı bilirdi ki, qabaqda onları ya böyük qələbə gözləyir, ya da şərəfli bir ölüm.

Məktub oxundu. Hər cümlədə Şah qəzəbə dolsa da, təmkinini qoruyur, sakitliyini saxlayırdı. Bəziləri təklif etdilər ki, elə tezliklə Sultan Səlimin üzərinə hücuma keçmək gərəkdir. Amma Hüseyn Lələ bəy ayağa qalxıb Şaha hörmət və ehtiramla təzim etdikdən sonra sözə başladı:

- Məlum olduğu kimi, Sultan Səlim Osmanlıların bütün qüvvələrini, demək olar ki, öz əlində cəmləyib. Daha ölkənin içərilərində ona müxalif olan əsaslı bir qüvvə qalmayıb. Hələ üstəlik, Avropadan da odlu silah daşıtdırıb gətirtməkdədir. Həm də o, təkcə bizimlə üzbəüz savaşmağa güvənmir. Onun başqa ehtiyatları da var. - Hüseyn Lələ bəyin bu sözlərindən sonra araya sükut çökdü. Şah sınayıcı nəzərlərlə Hüseyn Lələ bəyə baxdı. Deyəsən, Şahın fikrindən belə keçdi ki, deyəsən, Hüseyn Lələ bəy müharibəyə başlamağa tərəddüd edir. Amma Şah bu fikrində hələ qətiləşməmiş Hüseyn Lələ bəy sözünə davam elədi, - Biz Osmanlılarla müharibəyə başlayanda Übeyd xan bizə arxadan zərbə vura bilər.

Məhəmməd xan Ustaclı dilləndi:

- Kifayət qədər hərbi qüvvələr ayırmalıyıq və Xorasanda həmin ərazilərin təhlükəsizliyini təmin etməliyik. Məhəmməd xan Ustaclı dedikləri ilə Şahın razılaşıb-razılaşmayacağını da gözləmədən əlavə elədi, - biz də Misir məmlüklərini müttəfiq kimi Sultan Səlimə qarşı müharibəyə dəvət etməliyik.

si olaraq Səfəvilərin üzərinə hücuma keçmək üçün Sultan Səlimə din xadimlərinin fitvası gərək idi.

Sultan Səlim Herseqli Əhməd paşanı, Dikapunoğlu Əhməd paşanı, xadim Sənan paşanı, Mustafa paşanı, Qaraman bəylər bəyi Zeynal paşanı, Rumeli bəylər bəyi Həsən paşanı, Malkoçoğlu Turəli bəyi, Qoçaq Üveys bəyi, şahzadə Süleyman bəyi və digər Osmanlı sərkərdələrini sonuncu dəfə müşavirəyə topladı. Bu müşavirədə həm ölkənin böyük müharibəyə hazırlığı məsələsi müzakirə olunmalı idi, həm də elə həmin müşavirəyə dəvət olunmuş din xadimlərindən fitva alınmalı idi.

* * *

Və təqribən elə həmin vaxt İsfahanda da buna bənzər bir vəziyyət yaranmışdı.

Şah İsmayıl Kiçik Asiyadan - Rum elindən əsən küləklərin gətirdiyi zəhərli havanın bütün Səfəvi səltənətini bir vahimə altına aldığını hiss edirdi. Əsas da bu qara-qorxu şəklində gələn zəhərli hava Şah İsmayıla rəğbət göstərənləri də qonşu ölkələrin hakimlərini də təşvişə salmışdı. Bunun bir ötəri əhval olduğunu Şah İsmayıla Hüseyn Lələ bəy də, elə Məhəmməd xan Ustaclı da demişdi. Və hökmdara başa salmışdılar ki, Sultan Səlim təkcə müharibəyə hazırlıq işini qoşun tədarükü görməklə, hərbi silah-sursatını çoxaltmaqla bitmiş hesab etmir. Onun muzdlu-muzsuz, saysız-hesabsız casusları ölkə-ölkə gəzib Osmanlı səltənətinin necə qüdrətli olduğu haqqında bitib-tükənməyən nağıllar uydururdular. Əlbəttə, bu söz-söhbətlər elə də ciddi nəticə verməsə də, son nəticədə ümumi əhvala dönür, adamlar arasında müəyyən rəyin yaranmasına səbəb olurdu. Belə vəziyyətdə Sultan Səlimə cavab verməmək, hələ üstəlik açıq-aşkar onun müharibə hazırlığının məlum olduğu bir vaxtda hərəkətsiz qalmaq, bir iş görməmək daha betər fəsadlara yol aça bilərdi.

Onsuz da Şaha yaxşı məlum idi ki, Sultan Səlimlə qarşılaşmada tərəflər öz güclərinə güvənməli olacaqdılar. Çünki nə Sultan Səlimin qeyri ölkələrdən daha güclü dəstək alması vardı, nə də Şah İsmayılın. Hərçənd ki, Sultan Səlimin özbək hakiməlumdur ki, biz Əli ocağının, peyğəmbər yolunun qapısından tutiyə götürmüşük. Və bütün varlığımızla son anadək öz əqidəmizdə sabitqədəm olacağıq. Kimsəyə sirr deyil ki, hər kim Səfəvi ocağına pənah gətirirsə, onun sabahı xeyirliyə açılır. Biz indiyə qədər yolumuza rəğbət bəsləyənlərin - bizimlə həmrəy olanların hər birinə hörmət və ehtiram göstərmişik. İndi əgər Sultan Səlim atası, qardaşları ilə düşmənçiliyini başa çatdırıb, yönünü bizə sarı çeviribsə, biz də ona müvafiq cavab verməli olmalıyıq.

Şahın nitqi kifayət qədər təsirli idi. Divan üzvləri hər biri müharibənin qaçılmaz olduğunu artıq anladıqlarından tez-tələsik fikir bildirməyə can atmırdılar. Amma hər halda Hüseyn Lələ bəy hörmətlə şaha təzim etdi və fikrini bildirdi:



*Hüseynbala MİRƏLƏMOV*

# ÇALDIRANA GEDƏN YOL

## *romandan səhifələr*

Şah Məhəmməd xan Ustaclının dediklərinə razılığını başı ilə təsdiqlədi. Çünki Misir məmlükü Qansu Qiru Sultan Səlimdən narazı idi. Bu da onun müttəfiqliyinə səbəb ola bilərdi.

Şah müzakirəni bitirmək istədi:

- Düşünürəm ki, Hüseyn Lələ bəyin də, Məhəmməd xan Ustaclının da dedikləri doğrudur və biz bunların hamısını nəzərə almalıyıq. Amma gərək Sultan Səlimə də hərbi qarşılaşmadan əvvəl məktubla cavab verək.

* * *

Mövlana Sarıgörəz öz mənsəbini, mövqeyini qorumaq və Sultan Səlimin yanında da hər vaxt üzdə olmaq istəsə də, dəhşətli müharibələrin, hədsiz qan-qadaların, günahsız insan qanının axıdılmasının tərəfdarı deyildi. Ancaq yaxşı başa düşürdü ki, hökmdarlar öz hakimiyyətlərini möhkəmləndirmək üçün hər vaxt, hər cür vuruşa, döyüşə can atırlar. Onlar hakimiyyətlərini möhkmləndirmək üçün nəinki kənar yerdə düşmən axtarır, hətta öz ailələrində olan müxaliflərə belə güzəştə getmirlər. İndi bu səbəbdən də Mövlana Sarıgörəz Sultan Səlimi Şah İsmayılla müharibədən çəkindirmək istəsə də, buna cəsarət etmirdi. Çünki Sultan Səlim çox asanlıqla onu xəyanətdə suçlayar və asanlıqla dar ağacından asardı.

Belə olan təqdirdə Mövlana Sarıgörəz mümkün qədər öz başını salamat saxlamağın yolları haqqında düşünürdü. Ancaq Sultan Səlim hər hansı bir məsələdə bərkə düşən kimi Mövlana Sarıgörəzi arayır və ondan konkret cavablar istəyirdi. Sultan Səlim Mövlana Sarıgörəzin fikrini bilmək istəyirdi ki, Şah İsmayıl onun iki məktubuna cavab verməyib və bu üçüncü məktuba da cavab verməsə, onun müharibəyə başlamaq haqqı varmı, ya yox?!

Mövlana Sarıgörəz yaxşı başa düşürdü ki, Sultan bununla ondan Səfəvi xanədanı ilə müharibəyə fitva almaq istəyir. Avropa ölkələri ilə, xristianlarla müharibəyə ehtiyac yox idi. Ancaq müsəlman ölkəmi Ubeydulla xanla məktublaşmasından xəbərdar idi. Onu da yaxşı bilirdi ki, Ubeydulla xan mümkün qədər Sultan Səlimin qələbəsi üçün çalışacaqdı. Ancaq Şah İsmayıl onu elə də təsirli güc sahibi hesab etmirdi. Bundan başqa Sultan Səlim Anadolu tərəflərdə özlərinə bəyliklər yaratmış, ayrı-ayrı Ağqoyunlu şahzadələrini də Şah İsmayıl üzərinə qaldırmağa çalışır və bu barədə onlara məktublarla müraciət etmişdi. Bəli, Şah İsmayıl bunlardan da xəbərdar idi. Hətta Gürcüstan hakiminin də Sultan Səlimə Osmanlı-Səfəvi qarşılaşmasında dəstək verəcəyi bəlli idi. Bütün bunların hamısı Səfəvi ordusunun komandanları, Səfəvi xanədanının divan böyükləri arasındakı müzakirədə təhlil olunmuşdu. Ancaq Şah İsmayıl bütün bunların hamısını birlikdə Səfəvi ordusuna cavab verəcək bir qüvvə olduğuna inanmamışdı. Məhəmməd xan Ustaclı Diyarbəkir tərəflərdəki səfərindən qayıdarkən hökmdarı anlatmışdı ki, casuslar vasitəsilə Sultan Səlimin ordusunda odlu sursatın xüsusi yeri var və bu işə Sultan Səlim avropalıları cəlb edə bilib. Bu məsələ ətrafında da xeyli fikir çözüldü. Hər kəs öz rəyini bildirməkdən çəkinmədi. Nəyahət, söhbətin yekununda Səfəvi hökmdarı özü danışmalı oldu. Mövcud vəziyyəti bir daha aydınlaşdırmaq, Sultan Səlimin üçüncü məktubunun doğurduğu əks-sədanı kifayət qədər izahladı.

Hökumət başbilənləri, divan üzvləri, şahın danışığını diqqətlə dinləyirdilər: Mən belə başa düşürəm ki, Sultan Səlim kifayət qədər ciddi-cəhdlə müharibəyə hazırlaşır və o müharibəni bu yaxınlarda başlamaq niyyətindədir. Hətta müharibədə adamların əhvalını öz rəyinə tabe etmək üçün hər cür vasitələrdən istifadə edir. O, bunun üçün əsası olmayan şayiələr yaymaqdan çəkinmir. Guya biz dinsizik, İslam yolundan azmışıq, hər kəsə yaxşı

- Mürşidimizə başımız qurbandı. Onun dedikləri müqəddəslərin haqq yolunda baş qoymaqları qədər vacibdir və biz də bunu sözsüz anlayır, qəbul edirik. Amma daha Sultan Səlimin yazdıqlarını cavabsız qoymaq olmaz. Ona Səfəvi xanədanının nəyə qadir olduğunu, hökmdarın rəyini yazıb bildirmək gərəkdir.

Xan Məhəmməd Ustaclı da Hüseyn Lələ bəyin fikirlərinə şərik olduğunu bildirdi. Xüsusilə də, Sultan Səlimin məkubundakı təhqiramiz ifadələrə qəzəbli münasibətini gizlətmədi:

- İnsan nə qədər qudurğan və həyasız olar ki, öz atasını və qardaşlarını məhv etsin, qan içində boğsun və üstəlik başqa bir hökmdara ədalət, aqillik dərsi keçsin. Üstəlik hökmdara yaraşmayan hərəkətlərlə bulunmaqdan zövq alsın.

Digər divan üzvləri də müharibəyə zidd getmədilər. Çünki hər kəs öz nitqində bu müharibənin ədalətli olacağına Osmanlı hökmdarı Sultan Səlimin təcavüzünə cavab olacağına əminliklə danışırdı.

Beləliklə, Şah İsmayıl artıq hazırlamış olduğu məktubun hər kəsə bəyan edilməsinin nəinki vacib olduğunu, hətta vaxtının çatdığını nəzərə alıb, ipək üzərində yazılmış məktubun araya gətirilməsinə göstəriş verdi. Bir tərəfdə müntəzir dayanmış mirzə yaxınlaşdı və Şahın işarəsi ilə oxumağa başladı: «İlahi lütfü əldə edən, səltənəti ilə yamyaşıl İslam bağının himayəsində duran (İslamın himayədarı), dövlət, səltənət, dünya və din yolunun mücahidi cənab Sultan Səlim şaha, - Allah dövlətinizi daimi, əbədi sədaqətinizi isə tükənməz etsin, - sevgi dolu salam və dualarımı göndərir və «görüşmək» arzusunda olduğumu bildirirəm.

*(Davamı var)*